Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ (01-07 İyul)

| Fəaliyyət Planı | Əsas xəbər başlıqları | Xəbərlərin sayı |
|---|---|---|
| Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün 27.03.2024-cü il tarixli Yol Xəritəsi | ESG prinsiplərinin komponentləri üzrə qanunvericilikdə hansı güzəştlər nəzərdə tutulur? | 15 |
| | Bakıda Ətraf Mühit, Sosial və İdarəetmə Sammiti işə başlayıb | 22 |
| Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün 22.01.2024-cü il tarixli Yol Xəritəsi | Nəqliyyat sahəsi üzrə yeni dövlət standartları qəbul edilib | 17 |
| “Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə 02.04.2024-cü il tarixli Yol Xəritəsi | Vergi ödəyiciləri arasında növbəti onlayn sorğu | 4 |

**ESG prinsiplərinin tətbiqi və Bakıda keçirilən "ESG sammiti: Davamlı inkişaf üçün dövlət-özəl tərəfdaşlığı" mövzusunda tədbir**

**01-03.07.2024**

oxu.az




**ESG prinsiplərinin komponentləri üzrə qanunvericilikdə hansı güzəştlər nəzərdə tutulur?**

"Yaşıl iqtisadiyyat"a keçidin təmin edilməsində ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi xüsusilə əhəmiyyətlidir. Ümumilikdə ESG (Environmental, Social and Governance) prinsipləri dedikdə E komponenti üzrə şirkətin ekologiyaya münasibətdə nə dərəcədə diqqətli davranması, o cümlədən şirkətin korporativ iqlim siyasəti, enerjidən istifadəsi, tullantıların idarə edilməsi, təbii resursların qorunması istiqamətində həyata keçirdiyi tədbirlər nəzərdə tutulur. ESG-nin digər iki komponenti S və G isə şirkətin işçilərə, təchizatçılara və müştərilərə münasibətini, dəqiq və şəffaf mühasibat uçotunun tətbiqini, rəhbər işçilərin seçimi zamanı dürüstlük və bərabərliyə riayət olunması, səhmdarlar qarşısında cavabdehlik kimi məsələləri əhatə edir.
ESG-nin hər bir komponenti üzrə qanunvericilikdə bir sıra güzəşt, imtiyaz və dəstək tədbirləri nəzərdə tutulur.
**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) həmin güzəşt və imtiyazları diqqətinizə təqdim edir.**

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

**E komponenti (ekoloji, ətraf mühitin mühafizəsi) üzrə güzəştlər**

Azərbaycanda atmosfer havasını çirkləndirən əsas mənbə nəqliyyat sektorunun payına düşür. Son illər iqtisadi fəallığın artması fonunda nəqliyyat vasitələrinin sayı da sürətlə artır. Qeyd edilməlidir ki, köhnə nəqliyyat vasitələrinin istismarı Bakı və digər böyük şəhərlərdə havanın keyfiyyətinə mənfi təsir göstərir. Bu tendensiyanın qarşısını almaq üçün 2019-cu ildən etibarən mərhələlərlə elektrik və hibrid mühərrikli avtomobillərə, eyni zamanda, enerji doldurucularına və sıxılmış qazla işləyən avtobuslara güzəştlər tətbiq olunmağa başlanılıb.

Vergi Məcəlləsinə əsasən, elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı 2019-cu ildən əlavə dəyər vergisindən (ƏDV) azaddır. 2022-ci ilin 1 yanvar tarixindən elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı üç il müddətinə, istehsal tarixi üç ildən və mühərrikinin həcmi 2 500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı dörd il müddətinə ƏDV-dən azad olunub. Sürücü daxil olmaqla 10 nəfərdən çox adam daşımaq üçün nəzərdə tutulmuş sıxılmış qazla işləyən avtobusların idxalı 2020-ci il yanvarın 1-dən beş il müddətinə ƏDV-dən azaddır.

Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, zavod buraxılış tarixindən üç ilədək ötmüş yalnız elektrik mühərriki ilə hərəkətə gətirilən minik avtomobilləri və avtomobillər üçün ikinci və üçüncü səviyyəli enerji doldurucularının idxalı gömrük rüsumundan azad edilib.

Əhali qrupuna daxil olan aktiv istehlakçının bərpaolunan enerji mənbələri hesabına 150 kVt (150 kVt daxil olmaqla) güc həddinədək istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan mənfəət gəlir vergisindən azaddır.

Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 4 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2011-13-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən, ölkədə təkrar istehsalı inkişaf etdirmək məqsədilə Balaxanı Sənaye Parkı yaradılıb. Sənaye parkının yaradılmasında əsas məqsəd təkrar emal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaqdır. Sənaye parkının rezidentləri 10 il müddətinə mənfəət, torpaq və əmlak vergisindən

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

azaddır. Eyni zamanda, Vergi Məcəlləsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 10 il müddətinə vergidən azad edilir.

**S komponenti (sosial məsələlər) üzrə hansı güzəştlər tətbiq olunur?**

S komponentinin tərkib hissələrindən biri işçilər üçün güzəşt və imtiyazlarla bağlıdır. Milli əmək qanunvericiliyində həssas qruplardan olan işçilər üçün bir sıra güzəşt və əlavə təminatlar əks olunub. Məsələn, əlilliyi olan şəxslərin digər şəxslərlə bərabər səviyyədə əmək fəaliyyəti ilə məşğul olmaq hüququ təsbit edilib. Əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsi, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılması qadağandır. Onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə keçirilməsinə yol verilmir. İş yerlərinin əlilliyi olan şəxslərə müyəssər olması və istifadəsi üçün uyğunlaşdırılması təmin edilməlidir.

"Məşğulluq haqqında" Qanunla müəssisə və təşkilatlarda kvota müəyyən edilir. Bu kvota sosial müdafiəyə xüsusi ehtiyac olan işaxtaran və işsiz şəxslərin işlə təminatı üçün işəgötürənlər üzərində tətbiq edilən iş yerləridir. Həmin şəxslərin sırasına əlilliyi olan şəxslər, şəhid ailəsinin üzvləri, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, keçmiş məcburi köçkünlər daxildir.

Əmək qanunvericiliyində bir sıra kateqoriyalardan olan şəxslər üçün güzəşt və azadolmalar da əksini tapıb. Məsələn, Əmək Məcəlləsinə görə, işçilərin ayrı-ayrı kateqoriyalarına, onların yaşı, səhhəti, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri və digər hallar nəzərə alınaraq onlar üçün qısaldılmış iş vaxtı müəyyən edilə bilər. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşınadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və orqanizmin funksiyalarının 61-100%

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

pozulmasına görə əlilliyi müəyyən edilmiş işçilər üçün, həmçinin hamilə və yaşyarımadək uşağı olan qadınlar və üç yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün 36 saatdan artıq olmamalıdır. Eyni zamanda, əmək şəraiti fiziki, kimyəvi, bioloji, habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli iş yerlərində, yüksək həssaslıq, həyəcan, zehni, fiziki və əsəb gərginliyi, insanın səhhətinə mənfi təsir göstərən digər amillər olan əmək şəraitli iş yerlərində həftə ərzində 36 saatdan çox olmamaq şərtilə qısaldılmış iş vaxtı müəyyən edilməsi qanunvericilikdə təsbit edilib.

Əgər işçinin səhhəti və fizioloji vəziyyəti, habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə on dörd yaşına çatmamış, yaxud əlilliyi müəyyən edilmiş uşağı olan qadınlara öz ərizələri əsasında işəgötürən natamam iş vaxtı müəyyən etməlidir. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin əlilliyi müəyyən edilmiş uşağı olan qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların yazılı razılığı ilə yol verilir. Yaş yarımına çatmamış uşağı olan qadınlar öz ərizələri ilə uşağı yaş yarımına çatanadək başqa yüngül işə keçirilə və ya ona uşağını yedizdirməsi üçün şərait yaradılmalıdır.

Əmək müqaviləsi bağlanılarkən yaşı 18-dən az olan şəxslərə, hamilə və üç yaşına çatmamış uşağı olan qadınlara, habelə üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərə və digər kateqoriyalara sınaq müddəti müəyyən edilmir.

Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət almış və əlilliyi müəyyən edilmiş işçilər, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş işçilər, hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar, yaşı 18-dən az olan işçilər və digər bir sıra kateqoriyalardan olan işçilərin attestasiyası keçirilmir.

Məzuniyyət zamanı da bir sıra kateqoriyalardan olan işçilər üçün güzəştlər tətbiq olunur. Məsələn, Əmək

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

Məcəlləsində bildirilir ki, yeraltı işlərdə çalışan, əmək şəraiti zərərli və ağır, habelə əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginliklə bağlı olan işçilərə əməyin şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər verilir. Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətin müddəti altı təqvim günündən az olmamalıdır.

S komponenti, həmçinin, əməyin mühafizəsi tədbirlərini əhatə edir. 1995-ci ildə qəbul edilən ölkə Konstitusiyasında hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit edilib. Ölkəmizdə bu sahədə siyasət mütərəqqi beynəlxalq standartlara uyğun qurulub, ötən dövrdə Azərbaycan Beynəlxalq Əmək Təşkilatının əsas işçi hüquqları ilə bağlı 60-dək Konvensiyanı, o cümlədən əməyin mühafizəsi ilə əlaqədar 20-dən çox Konvensiyanı ratifikasiya edib.

Milli qanunvericiliyin əsas tələblərindən biri də odur ki, əmək müqaviləsinin bağlanması şərtləri əməyin mühafizəsi normalarının tələblərinə uyğun olmalı, müqavilədə işəgötürənin işçinin sağlam, təhlükəsiz əmək şəraitinə təminat verməsi öhdəliyi qeyd olunmalıdır. Müəssisənin mülkiyyətçisi və işəgötürəni işçilərin iş yerlərində əməyin mühafizəsi normalarının və qaydalarının yerinə yetirilməsinə bilavasitə cavabdehdirlər və əməyin mühafizəsi üzrə standartların, normaların və qaydaların bütün tələblərinə əməl edilməsini təmin etməlidirlər.

2023-cü ildə Dövlət Əmək Müfəttişliyi Xidmətinin tabeliyində olmaqla "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsi yaradılıb. Mərkəz işəgötürənlərə əməyin mühafizəsi və iş yerlərinin attestasiyası sahələrində xidmətlər göstərmək, eləcə də bu sahələrdə təlimlər keçirmək, işəgötürənlərə əmək hüquqları, əməyin mühafizəsi və əməyin təhlükəsizliyi sahəsində məsləhət xidmətləri verilməsini, metodiki dəstəyi təmin etmək məqsədi daşıyır.

**G komponenti (idarəetmə sahəsi) üzrə güzəşt və azadolmalar**

Mərkəzi Bankın İdarə Heyətinin 28 avqust 2023-cü il tarixli qərarı ilə "Banklarda korporativ idarəetmə standartları"na ESG prinsipləri inteqrasiya edilib. Bununla banklar uzunmüddətli dövr üzrə dayanıqlığını təmin etmək məqsədilə biznes strategiyasında fəaliyyətinə əhəmiyyətli təsiri olan və ya ola biləcək

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

ESG amillərini və risklərin qiymətləndirilməsi prosesində ESG amillərini ehtiva edən maliyyə və qeyri-maliyyə risklərini də nəzərə almalıdır.
2023-cü ildə yeni ticarət və ticarət sonrası elektron sistemi istifadəyə verilib. Yeni elektron ticarət sistemi investorların fond birjası vasitəsilə məsafədən ticarətinə imkan verən müvafiq proqram təminatlarının inteqrasiyasına imkan verir.

### Digər saytlar və portallar

1. https://oxu.az/iqtisadiyyat/idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzestler-nezerde-tutulur
2. https://az.trend.az/business/3918451.html
3. https://news.milli.az/economy/1215254.html
4. https://news.day.az/azerinews/1672008.html
5. https://fins.az/biznes/319437/ekoloji-sosial-ve-korporativ-idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzestler-nezerde-tutulur/
6. https://moderator.az/az/iqtisadiyyat/784002/idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzestler-nezerde-tutulur/
7. https://banco.az/az/news/ekoloji-sosial-ve-korporativ-idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi
8. https://azertag.az/xeber/ekoloji_sosial_ve_korporativ_idareetme_prinsiplerinin_komponentleri_uzre_qanunvericilikde_hansi_guzestler_nezerde_tutulur-3077094
9. https://cebheinfo.az/iqtisadiyyat/idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzestler-nezerde-tutulur_674
10. https://bbn.az/ekoloji-sosial-v%c9%99-korporativ-idar%c9%99etm%c9%99-prinsipl%c9%99rinin-komponentl%c9%99ri-uzr%c9%99-qanunvericilikd%c9%99-hansi-guz%c9%99stl%c9%99r-n%c9%99z%c9%99rd%c9%99-tutulur/
11. https://newscenter.az/2024/07/01/ekoloji-sosial-ve-korporativ-idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzestler-nezerde-tutulur.html
12. https://www.financetime.az/news/news-view.php?id=36598
13. https://rockvell.com/?p=25413
14. https://ikisahil.az/post/529122-ekoloji-sosial-ve-korporativ-idareetme-prinsiplerinin-komponentleri-uzre-qanunvericilikde-hansi-guzeshtler-nezerde-tutulur
15. https://vergiler.az/news/economy/30810.html

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

azertag.az

## Bakıda Ətraf Mühit, Sosial və İdarəetmə Sammiti işə başlayıb




İyulun 3-də Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi və “PwC Azərbaycan” şirkətinin birgə təşkilatçılığı ilə Bakıda Ətraf Mühit, Sosial və İdarəetmə (ESG) Sammiti işə başlayıb.

AZƏRTAC xəbər verir ki, “29 İqlim söhbəti: COP29-a aparan yol” təşəbbüsü çərçivəsində “Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlıqları” mövzusunda keçirilən sammit Azərbaycanın 2024-cü ilin noyabrında ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi Konfransına (COP29) həsr olunub.

Sammitin məqsədi qlobal iqlim problemlərini həll etmək üçün ESG prinsiplərinin inteqrasiyasının təşviqi, dövlət və özəl qurumlar arasında dialoq və əməkdaşlığı inkişaf etdirməkdir.

Əsas mövzular arasında ESG-yə uyğunluğun təşviqi və genişləndirilməsində normativ aktların və standartların rolunu müzakirə etmək, dayanıqlı inkişafa effektiv töhfə vermiş uğurlu PPP (dövlət-özəl tərəfdaşlığı) modellərini vurğulamaq, dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlıqlarının qurulmasında qarşıya çıxan problemləri aşkarlamaq və iqlim məqsədlərinə nail olmaq üçün konkret tədbirlər həyata keçirmək yer alıb.

Sammitdə çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev bildirib ki, özəl sektorun öz ambisiyalarını yüksəltməsi və kollektiv tərəqqi üçün davamlılıq öhdəliklərini sürətləndirməsi lazımdır: “Biz birgə işləməklə dövlət və

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.



özəl qurumların ESG-nin həyata keçirilməsində anlayışlar, strategiyalar və ən yaxşı təcrübələri paylaşa biləcəyi əməkdaşlıq mühitini inkişaf etdirmək səylərini dəstəkləyə bilərik. Ortaq problemlərimiz üçün işlək həll yolları tapılması məqsədilə özəl sektora ehtiyacımız var. Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik. Ümid edirik ki, şirkətlər kapitalı necə bölüşdürdükləri və investisiya qərarlarının iqlim məqsədlərimizə uyğun olmasını necə təmin etdiklərini göstərə biləcək şəkildə COP29-a hazır gələ bilərlər”. Nazir qeyd edib ki, iqlimə müsbət təsir göstərən iqtisadi modellər yarada bilmək məqsədilə yaşıl kapital bazarlarını dərinləşdirmək üçün maliyyə xidmətləri sənayesinə ehtiyac var.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edərək deyib: “Bu il ictimaiyyətə və biznes nümayəndələrinə ESG prinsipləri üzrə güzəşt və imtiyazlar təqdim etməyə çalışırıq. Çalışırıq ki, ESG üzrə bütün tərəflərin aktiv iştirakı üçün şərait yaradaq. ESG elementlərinin təşviqi baxımından biznes mühitinin yaxşılaşdırılması əsas prioritet hədəflərin tərkib hissəsini təşkil edir".

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun sözlərinə görə, ESG Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində fəaliyyətin və tərəqqinin sürətləndirilməsi üçün platforma rolunu oynayır. Bu gün dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi həmişəkindən daha vacibdir.

Nazir müavini qeyd edib ki, Azərbaycan dayanıqlı inkişaf məqsədləri ilə bağlı üzərinə öhdəlik götürüb:

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

“Bugünkü işimiz inklüzivliyi, səmərəliliyi və dayanıqlılığı təşviq edir. ESG tərəfində hesabatlılıq və şəffaflığa gəldikdə, qeyd etmək istərdim ki, Azərbaycan Dayanıqlı İnkişaf üzrə 7 Milli Hesabatını təqdim edən dünyanın bir neçə ölkəsi sırasındadır və dünyanın beş ölkəsindən biri 4-cü Könüllü Milli İcmalını təqdim etmək niyyətindədir”.

Sahib Məmmədov bildirib ki, Azərbaycanda Ətraf Mühit, Sosial və İdarəetmə çərçivələrinin ümumiləşdirilməsi davamlı və məsuliyyətli biznes təcrübələrinin ölkənin korporativ və maliyyə sistemlərinə inteqrasiyasını nəzərdə tutur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, keçən il KOBİA tərəfindən cəlb edilən peşəkar sorğu şirkəti Azərbaycanda ESG-nin cari vəziyyətini göstərən ilk genişmiqyaslı sorğu aparıb: “Sorğu ölkənin bütün ərazisini və müxtəlif sektorları əhatə etməklə 300-ə yaxın respondent arasında keçirilib və ESG sahəsində mövcud statusun öyrənilməsi baxımından ilk əhatəli araşdırma hesab oluna bilər. Sorğunun göstəricilərinə əsasən, ESG prinsipləri barədə ölkədəki məlumatlılıq səviyyəsi 7 faiz, tətbiq səviyyəsi isə 3,5 faiz təşkil edir. Təchizatçı seçimində ESG prinsiplərini nəzərə alma səviyyəsi 2,5 faiz, ESG prinsipləri barədə hesabatlılıq səviyyəsi 1,4 faizdir”.

Onun sözlərinə görə, sorğu ESG tətbiqinin ilkin ehtiyaclarını da müəyyən edir ki, bunlara detallı izahlar, əlavə bilik və bacarıqlar və insan resursları daxildir. İkinci dərəcəli ehtiyaclar isə vergi güzəştləri, subsidiyalar, qanunvericilik dəyişiklikləri və güzəştli kreditlərdir.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreeva dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda dövlət və özəl sektorlar arasında əməkdaşlığın həlledici rolunu vurğulayıb.

O bildirib ki, ESG təcrübələrinin inteqrasiyası təkcə uyğunluqdan ibarət deyil - bu, dəyər yaratmaq, riskləri idarə etmək və gələcək nəsillər üçün dayanıqlı gələcəyə töhfə verməkdən ibarətdir.

“PwC”nin Azərbaycan üzrə idarəedici partnyoru Shaukat Tapia çıxışında deyib: “Biz ESG prinsiplərinin biznes strategiyalarına inteqrasiyasının uzunmüddətli uğur və dayanıqlılıq üçün vacib olduğunu hesab edirik. Bu sammit iqlim dəyişikliyi ilə bağlı mürəkkəb

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

problemlərin həlli üçün çox vacib olan dövlət-özəl əməkdaşlığının təşviqi üçün mühüm platforma təqdim edir. Birlikdə işləməklə biz dayanıqlı inkişafı dəstəkləyən, maraqlı tərəflərin inamını artıran və təsir göstərən möhkəm çərçivələr yarada bilərik. Burada paylaşılan fikirlər və strategiyalar Azərbaycan şirkətlərinə ESG səyahətlərində yol göstərmək və daha möhkəm gələcəyə töhfə verməkdə mühüm rol oynayacaq".
Sonra "Yaşıl gündəliyin müxtəlif perspektivləri" sessiyası keçirilib. Sessiyada iqlimlə bağlı fəaliyyətdə dövlət-özəl sektor sinerjisi, SDG İnvestor Platforması və yaşıl inkişafı təşviq etmək məqsədilə strategiyalar mövzusunda təqdimatlarla çıxışlar edilib. BMT-nin İqlim Dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai və digərlərinin məruzələri dinlənilib.
Daha sonra "Azərbaycan hökumətinin siyasətlərinə və korporativ strategiyalarına ESG-nin inteqrasiyası" və "Özəl sektor perspektivi" mövzularında keçirilən panel müzakirələrində ESG prinsiplərinin Azərbaycanın hökumət siyasətinə və korporativ strategiyalarına inteqrasiyasına dair müzakirələr aparılıb.
Ətraf Mühit, Sosial və İdarəetmə Sammiti iyulun 4-də işini davam etdirəcək.

**report.az**

**Azərbaycanda ESG prinsiplərinin tətbiq səviyyəsi qiymətləndirilib**

Ötən il Azərbaycanda ətraf mühit, sosial və idarəetmə məsuliyyəti (ESG) prinsiplərinin tətbiq səviyyəsi 3,5 % olub. "Report" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bu gün Bakıda keçirilən "ESG sammiti: Davamlı inkişaf üçün dövlət-özəl tərəfdaşlığı" adlı tədbirdə deyib.
O bildirib ki, 2023-cü ildə peşəkar araşdırma şirkəti tərəfindən Azərbaycanda ESG-nin cari vəziyyətini göstərən ilk genişmiqyaslı sorğu aparılıb: "Sorğu müxtəlif sektorlar və bölgələr üzrə təxminən 300 respondenti əhatə edib. Sorğunun nəticələrinə əsasən Azərbaycanda ESG prinsiplərinin fərqindəlik səviyyəsi 7 %, təchizatçı seçiminə təsiri 2,5 %, bu prinsiplər üzrə hesabatlılıq 1,4 %-dir".

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

Orxan Məmmədov əlavə edib ki, sorğu ESG tətbiqinin ilkin ehtiyaclarını da müəyyən edir ki, bunlara detallı izahlar, əlavə bilik və bacarıqlar və insan resursları daxildir: "İkinci dərəcəli ehtiyaclar isə vergi güzəştləri, subsidiyalar, qanunvericilik dəyişiklikləri və güzəştli kreditlərdir. KOBİA ESG prinsiplərini bütün maraqlı tərəflər, o cümlədən bizneslər arasında təşviq etməyə davam edir".

KOBİA-nın sədri qeyd edib ki, ESG prinsipləri dayanıqlı inkişafı təmin etməyə, risklərə qarşı davamlılığı artırmağa, beynəlxalq maliyyə resurslarına və bazarlara çıxışı genişləndirməyə, ümumi biznes idarəetməsini optimallaşdırmağa kömək edir.

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

## Digər saytlar və portallar


1. https://azertag.az/xeber/bakida_etraf_muhit_sosial_ve_idareetme_sammiti_ise_baslayib-3080442
2. https://respublika-news.az/az/news/bakida-dayaniqli-inkisaf-namine-dovlet-ozel-terefdasliq-sammiti-ise-baslayib
3. https://yeniazerbaycan.com/xeberlenti_e104367_az.html
4. https://www.qht.az/details/az/32680
5. https://livepress.media/bakida-etraf-muhit-sosial-v%c9%99-idar%c9%99etm%c9%99-sammiti-is%c9%99-baslayib/
6. https://ekologiya.az/cemiyyet/4603-bakida-etraf-muhit-sosial-ve-idareetme-sammiti-ishe-bashlayib.html
7. https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/bakida-etraf-muhit-sosial-ve-idareetme-sammiti-ise-baslayib-1720016721
8. https://ritorika.az/bakida-dayaniqli-inkisaf-namin%c9%99-dovl%c9%99t-oz%c9%99l-t%c9%99r%c9%99fdasliq-sammiti-is%c9%99-baslayib/
9. https://ikisahil.az/post/529651-cop29-a-aparan-yol
10. https://report.az/biznes-xeberleri/vusal-sixeliyev-esg-prinsipleri-uzre-guzestt-ve-imtiyazlar-teqdim-etmeye-calisiriq/
11. https://report.az/biznes-xeberleri/azerbaycanda-esg-prinsiplerinin-tetbiq-seviyyesi-qiymetlendirilib/
12. https://serqqapisi.gov.az/xeberler/nazir-muavini-bu-gun-dovlet-ve-ozel-sektor-arasinda-emekdasligin-guclendirilmesi-hemisekinden-daha-vacibdir
13. https://azertag.az/xeber/vusal_sixeliyev_bu_il_esg_prinsipleri_uzre_guzest_ve_imtiyazlar_teqdim_etmeye_chalisiriq-3079366

14. https://www.azerbaycan24.com/vusal-sixeliyev-esg-prinsipleri-uzre-guzest-ve-imtiyazlar-teqdim-etmeye-calisiriq/
15. https://www.socialnews.az/az/vusal-sixeliyev-bu-il-esg-prinsipleri-uzre-guzest-ve-imtiyazlar-teqdim-etmeye-calisiriqsocialnewsaz
16. https://gdp.az/vusal-six-liyev-esg-prinsipl-ri-uzr-guz-st-v-imtiyazlar-t-qdim-etm-y-calisiriq/
17. https://ritorika.az/vusal-six%c9%99liyev-esg-prinsipl%c9%99ri-uzr%c9%99-guz%c9%99st-v%c9%99-imtiyazlar-t%c9%99qdim-etm%c9%99y%c9%99-calisiriq/
18. https://www.azerbaijan-news.az/az/posts/detail/vusal-sixeliyev-bu-il-esg-prinsipleri-uzre-guzest-ve-imtiyazlar-teqdim-etmeye-calisiriq-1719991335
19. https://far.az/210429-vsal-xliyev-esg-prinsiplri-zr-gzt-v-imtiyazlar-tqdim-etmy-alrq.html
20. https://www.azerbaycan24.com/azerbaycanda-esg-prinsiplerinintetbiq-seviyyesi-qiymetlendirilib/
21. https://naxcivanxeberleri.az/bloq/azerbaycanda-esg-prinsiplerinin-tetbiq-seviyyesi-qiymetlendirilib-47384
22. https://baku.news/gundem/71704-azerbaycanda-esg-prinsiplerinin-tetbiq-seviyyesi-qiymetlendirilib.html

**“Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol xəritəsi”ndə nəzərdə tutulmuş tədbirlər**

**02.07.2024**

**azertag.az**

**Nəqliyyat sahəsi üzrə yeni dövlət standartları qəbul edilib**

Ölkədə nəqliyyat sahəsi üzrə yeni dövlət standartları qəbul edilib. Azərbaycan Standartlaşdırma İnstitutundan (AZSTANDART) bildirilib ki, yeni dövlət standartlarının tətbiqi ölkəyə idxal olunan hibrid avtomobil kateqoriyasını müəyyən etməyə, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən istifadə üzrə zəruri infrastrukturun yaradılmasına, nəqliyyat vasitələrinin ətraf mühitə buraxdığı çirkləndirici maddələrin miqdarını azaltmağa, nəqliyyat vasitələrində elektrik ötürücülərinin təhlükəsizliyini təmin etməyə imkan yaradacaq.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən aşağıdakı yeni dövlət standartları qəbul edilib:

- AZS ECE 83:2024 “Mühərrikin yanacaq tələblərinə uyğun olaraq çirkləndiricilərin emissiyası ilə bağlı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”;
- AZS ECE 101:2024 “Karbon 4-oksidin həcminin və yanacaq sərfinin və/və ya elektrik enerjisinin və elektrik diapazonunun ölçülməsi ilə bağlı yalnız daxiliyanma mühərriki ilə hərəkətə gətirilən, yaxud hibrid elektrik ötürücünün köməyi ilə hərəkətə gətirilən minik avtomobillərinin, həmçinin elektrik enerjisinin sərfinin və elektrik diapazonunun ölçülməsi baxımından yalnız elektrik ötürücünün köməyi ilə hərəkətə gətirilən M1 və N1 kateqoriyalı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”;
- AZS ECE 100:2024 “Elektrik ötürücülərinə dair xüsusi tələblərlə bağlı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”.

**Yeni dövlət standartları Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin**

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində təsdiq olunub.

**stimullaşdırılması və infrastrukturun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə qəbul olunub**. Adıçəkilən Yol xəritəsi Komissiyanın "Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə altqrupu"nun fəaliyyətini əhatə edir.

Sözügedən standartlar "Nəqliyyat və nəqliyyat infrastrukturu" (AZSTANDART/TK 43) standartlaşdırma üzrə Texniki Komitənin iclasında müzakirə edilib və konsensus əsasında qəbul edilmiş qərara müvafiq olaraq Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən təsdiqlənərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu və Reyestrinə daxil edilib.

Müvafiq dövlət standartları ilə milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsində (http://azstand.gov.az/az/standart-axtar, http://e-standart.gov.az/) tanış olmaq və rəsmi nəşrlərini kağız və ya elektron formada əldə etmək mümkündür.

Qeyd edək ki, Komissiyanın "Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə altqrupu"na rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

## Digər saytlar və portallar

1. https://azertag.az/xeber/neqliyyat_sahesi_uzre_yeni_dovlet_standartlari_qebul_edilib-3078830
2. https://fed.az/az/diger/azerbaycanda-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib-203708
3. https://marja.az/117280/example
4. https://apa.az/az/news/852619
5. https://report.az/biznes-xeberleri/azerbaycanda-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib/
6. https://www.xezerxeber.az/news/iqtisadiyyat/421936/azerbaycanda-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib
7. https://index.az/98402/
8. https://konkret.az/azerbaycanda-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edildi/
9. https://azpost.info/n%c9%99qliyyat-sah%c9%99si-uzr%c9%99-yeni-dovl%c9%99t-standartlari-q%c9%99bul-edilib/
10. https://yeniazerbaycan.com/xeberlenti_e104311_az.html
11. https://www.azerbaycan24.com/azerbaycanda-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib/

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində təsdiq olunub.

12. https://redaktor.az/news/economy/246059i
13. https://azstand.gov.az/az/xeberler/olkede-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib
14. https://competition.gov.az/az/post/869/olkede-neqliyyat-sahesi-uzre-yeni-dovlet-standartlari-qebul-edilib
15. https://www.facebook.com/share/p/cr9n8YMdijGybq3D/?
16. https://x.com/antiinhisar/status/1808122601216049204?s=46&t=hpIWaPbaIUb0aORh8j2VLQ
17. https://www.instagram.com/p/C868aBdqv9j/?igsh=MWJkcHI4Y2d3NmVnMg==

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində təsdiq olunub.

**“Vergi və hesabatlılıq” işçi qrupunun fəaliyyəti**

**03.07.2024**

“Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub.

**vergiler.az**

**Vergi ödəyiciləri arasında növbəti onlayn sorğu**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)”nin təqdim edilməsi ilə bağlı onlayn sorğu keçirir. Bu sorğu “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)”nin Dövlət Vergi Xidməti tərəfindən tərtib olunması və sadələşdirilmiş interfeys formasında SMS bildirişlə vergi ödəyicilərinə göndərilməsi xidmətindən istifadə səviyyəsini, habelə xidmətlərdən istifadə zamanı yarana biləcək çətinlikləri öyrənmək məqsədi daşıyır.

Sorğu anonim keçirilir və sorğuda iştirak edənin heç bir məlumatı qeydə alınmır. Sorğuda iştirak etməklə siz “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)”nin tərtibi prosesnin daha da asanlaşdırılması və bu sahədə aparılan işlərin təkmilləşdirilməsinə öz töhfənizi verə bilərsiniz.

Sorğuda bu link vasitəsilə iştirak edə bilərsiniz.

**Digər saytlar və portallar**

1. https://vergiler.az/news/taxes/30843.html
2. https://www.taxes.gov.az/az/post/3390
3. https://www.instagram.com/p/C8808VoNBrI/
4. https://x.com/vergiler/status/1808375987484099056